

# XEYRİYYƏÇİLİK - XALQIN VƏ DÖVLƏTİN MARAQLARINA TƏMƏNNASIZ XİDMƏTDİR

**Xeyriyyəçilik xalqımızın milli-mənəvi dəyərlərindən biri kimi zəngin ənənələrə malikdir. Tarix boyu əcdadlarımız xeyirxahlığı, mərdliyi, səxavətli olmağı və başqalarına əl tutmağı çox vacib əməl, savab iş sayıblar. Müqəddəs dinimiz də insanları daim xeyir işlər görməyə çağırıb və təşviq edib. Azərbaycanın son yüz əlli illik tarixində xeyriyyəçilik fəaliyyətinin ən görkəmli nümayəndəsi kimi məşhur Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin xüsusi yeri vardır. O, kasıb ailədə böyüsə də, öz zəhməti hesabına böyük sərvət qazanıb, dövrünün zəngin adamı olub. Hacının Bakıda ucaldılmış abidəsinin bu il yanvarın 18-də açılışı münasibətilə çıxış edərkən Prezident İlham Əliyev onun tarixdə zəngin adam kimi yox, məhz xeyriyyəçi kimi qaldığını vurğulayıb və ömrü boyu Bakının inkişafına, abadlaşmasına, ümumiyyətlə, Azərbaycanın inkişafına böyük töhfələr verdiyini qeyd edib.**

Dövlətimizin başçısının həmin çıxışında Hacı Zeynalabdin Tağıyevin əsasını qoyduğu xeyriyyəçilik ənənələrinin bu gün müstəqil ölkəmizdə davam etdirildiyini, geniş vüsət aldığını da diqqətə çatdırıb. Təkcə Azərbaycanda deyil, ümumən Cənubi Qafqazda ən böyük xeyriyyəçi kimi tanınan Heydər Əliyev Fondunun fəaliyyətinə münasibət bildirən Prezident İlham Əliyev deyib: "Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılmışdır və bütün bu illər ərzində Fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir. Azərbaycanın multikultural dövlət kimi, müasir dövlət kimi dünyada tanıdılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır. Məhz Fondun fəaliyyəti nəticəsində Azərbaycan daha çox tanınır və məhz bu amil bizə İkinci Qarabağ müharibəsi dövründə kömək göstərdi".

Ulu Öndərin vəfatından bir müddət sonra - 2004-cü il mayın 10-dan fəaliyyətə başlayan Heydər Əliyev Fondu xalqımızın dahi oğlunun, Ümummilli Liderinin həyat və fəaliyyət fəlsəfəsinin, onun elmi-nəzəri irsinin, azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği, gələcək nəsillərə çatdırılması kimi şərəfli missiyanı öz öhdəsinə götürüb və bu yolda uğurla addımlamaqdadır. Fond elm, təhsil, səhiyyə, mədəniyyət, sosial, idman, İKT, ətraf mühitin qorunması və digər sahələrdə mühüm layihələr həyata keçirir. Dünya miqyasında öz xeyirxahlığı ilə böyük rəğbət qazanmış Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fond müstəqil dövlətimizin tərəqqisinə sanballı töhfələr verməklə yanaşı, çoxşaxəli humanitar fəaliyyəti, insanlara daim kömək əli uzatması və xeyriyyəçiliyi ilə də tanınır. Belə ki, sosial müdafiəyə, yardıma ehtiyacı olan insanlar, kimsəsizlər hər zaman diqqətdə saxlanılır, onların həyat şəraitinin yaxşılaşdırılması, sağlamlığının qorunması üçün tədbirlər görülür. Birinci vitse-prezident kimi ilk müşavirəsini qaçqın və məcburi köçkünlərin problemlərinə həsr edən Mehriban Əliyeva əhalinin bu həssas təbəqəsinə, həmçinin şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına xüsusi qayğıkeşliklə himayədarlıq edir. Həqiqət naminə deməliyik ki, dövlət müstəqilliyinin bərpasından sonrakı dövrdə ölkəmizdə xeyriyyəçilik ənənələrinin dirçəldilməsində və daha da zənginləşdirilməsində onun misilsiz xidmətləri vardır. Mehriban xanım müsahibələrindən birində xeyriyyəçilik fəaliyyətinin istiqamətləri barədə danışarkən demişdi: "Mən bizim çox zəngin mədəni ənənələrimizin qorunub saxlanması, nadir tarixi və memarlıq abidələrinin mühafizəsi, təbii mühitin qorunması, istedadlı gənclərə dəstək, bədən tərbiyəsi və idmanın inkişafına kömək məsələlərini də xeyriyyəçilik fəaliyyətinin üstün istiqamətlərinə aid edərdim". Ötən iyirmi ilə yaxın müddət ərzində görülən işlərə nəzər salsaq, bu istiqamətlərin hər birində Mehriban xanımın öz missiyasını necə fədakarlıqla yerinə yetirdiyini görə bilərik.



Ulu Öndərin "Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!" kəlamını öz fəaliyyəti üçün leytmotiv kimi qəbul edən Heydər Əliyev Fondunun xeyirxah təşəbbüsləri sərhəd tanımır: bu təşəbbüslər Avropanın mərkəzində də, Asiya və Afrikanın yaxın-uzaq ölkələrində də eyni xoş niyyətlə, xalqımızın çoxəsrlik xeyriyyəçilik ənənələrinə layiq şəkildə gerçəkləşdirilir, ölkəmizə böyük rəğbət qazandırır. Pakistan, Cibuti, Bosniya və Herseqovina, Misir, Hindistan, Haiti və digər ölkələrdə Fond tərəfindən Azərbaycan adına həyata keçirilən xoşməramlı aksiyalar ölkələrimiz arasında dostluq əlaqələrinin möhkəmlənməsinə xidmət edir. Dünyada mədəni irsin qorunmasına, tarixi-mədəni abidələrin və mədəniyyət obyektlərinin bərpasına Heydər Əliyev Fondunun dəstəyi xalqımızın mənəvi dünyasının zənginliyini ifadə edir. Fond Strasburq Kafedral kilsəsinin XIV əsrə aid olan beş pəncərəsinin, Versal Sarayının parkındakı "Amazonka"nın və "Qulpları favn başları ilə bəzədilmiş vaza"nın, Fransada X-XII əsrlərə aid 7 kilsənin, Bolqarıstanın Veliko Tırnovo şəhərində yerləşən "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun bərpasını, Romanın Kapitolini Muzeyinin "Filosoflar zalı"nın təmirini həyata keçirib, Parisin Luvr muzeyində İslam incəsənətinə həsr olunmuş yeni zalların yaradılmasında iştirak edib, həmçinin İkinci Dünya müharibəsi illərində dağıdılmış və yandırılmış Berlin qəsrinin bərpası təşəbbüsünə qoşulub. Bundan başqa, xristian aləmi üçün ən mühüm abidələrdən olan Roma katakombalarının bərpasında da Fond yaxından iştirak edib.

Heydər Əliyev Fondunun ölkə daxilində həyata keçirdiyi xeyriyyəçilik missiyasının miqyası o qədər genişdir ki, saymaqla bitməz. Sadəcə, əsas istiqamətlərin və layihələrin adlarını çəkməklə kifayətlənmək lazım gəlir: "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Təhsilə dəstək", "Yeniləşən Azərbaycana yeni məktəb", "Talassemiyasız həyat naminə" proqramları, "Kor və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsinə dair", "Tibb müəssisələrinin yenidən qurulması və inşası", "Diabetli uşaqlara ən yüksək qayğı", "Qarabağ həqiqətləri", Muğam Televiziya Müsabiqəsi layihələri və digər misilsiz təşəbbüslərlə yanaşı, Fond hər Yeni ildə, Novruz şənliklərində, yeni dərs ilinin başlanmasında, əlamətdar bayramlarda şəhid, əlil, məcburi köçkün ailələrində və aztəminatlı ailələrdə böyüyən, eləcə də valideyn himayəsindən məhrum olan uşaqlara sovqatlar göndərir, onlar üçün əyləncəli şənliklər keçirir. Müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların bir qisminin mütəmadi olaraq zəruri tibbi müayinə üçün müxtəlif ölkələrə göndərilməsinə də Fond tərəfindən yardım göstərilir. Məlum olduğu kimi, keçmiş məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılmasında da Heydər Əliyev Fondunun xeyriyyəçilik təşəbbüsünün mühüm rolu olub. Prezident İlham Əliyevin çağırışına və Fondun təşəbbüsünə qoşulan özəl sektor təmsilçilərinin dəstəyi ilə paytaxt yaxınlığındakı Qobu qəsəbəsində məcburi köçkünlər üçün dörd minə yaxın ailənin məskunlaşdığı müasir tipli 3 yaşayış kompleksi salınıb və istifadəyə verilib.

Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığına əsasən, Heydər Əliyev Fondu işğaldan azad olunmuş ərazilərdə bölgədəki tarixi-mədəni və dini abidələrimizin bərpasına, konservasiyasına və yenidən qurulmasına yerli və xarici mütəxəssisləri cəlb edib. 32 ildən sonra Şuşada, Cıdır düzündə Heydər Əliyev Fondu tərəfindən təşkil olunan "Xarıbülbül" Musiqi Festivalı, Fondun təşəbbüsü ilə Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin əsərlərinin notlarından ibarət "Əbədi imzalar" toplusunun, "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusunun hazırlanması Azərbaycan xalqının mənəvi, tarixi, mədəni irsinin təşviqi və qorunması işinə dəyərli töhfələrdir.

Heydər Əliyev Fondu pandemiya ilə mübarizə istiqamətində tədbirlərə də öz töhfəsini verir. Mehriban xanım Əliyevanın tapşırığı əsasında ölkədə laboratoriya sisteminin gücləndirilməsi, yeni laboratoriyaların qurulmasında, eyni zamanda, yüksəkkeyfiyyətli müayinələrin aparılması üçün Almaniya və İngiltərə istehsalı olan test kitləri alınmasında da fondun fəal dəstəyi olub. Fond tərəfindən həkimlərin təhlükəsizliyini təmin etmək məqsədilə, eləcə də uşaq evləri, körpələr evi, internat məktəbləri və digər sosial xidmət müəssisələri üçün maska, tibbi geyim, əlcək və digər qoruyucu vasitələr alınıb. Süni nəfəs aparatları, tibbi monitorlar və hemofiltrasiya cihazlarının gətirilməsində də Fondun müvafiq strukturlarının işi təqdirəlayiqdir. Heydər Əliyev Fondu dünyanın nüfuzlu səhiyyə təşkilatları ilə əlaqələrindən istifadə edərək koronavirusla mübarizə işində də fəal iştirak edir.

Xeyriyyəçilik ənənələrinin uğurla davam etdirilməsi, bu ənənələrə dövlətimizin dəstək verməsi cəmiyyətdə yüksək dəyərləndirilir. 44 günlük Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qarabağ Dirçəliş Fondunun və "YAŞAT" Fondunun fəaliyyəti böyük rəğbət doğurmaqla, vətəndaşlarımızın və sahibkarlıq subyektlərinin bu vacib və gərəkli işdə iştirakına, xeyriyyəçilik fəaliyyətinə geniş imkan yaradır. Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə yaradılmış "Yaşat" Fondu ötən il fəaliyyət istiqamətləri üzrə 50 milyon manata yaxın vəsait xərcləyib.

Qarabağ Dirçəliş Fondu isə işğaldan azad edilmiş ərazilərin bərpası, yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsini, habelə ölkə daxilində və xaricində zəruri təşviqat işlərinin aparılmasını təmin etmək məqsədilə bir il bundan əvvəl yaradılıb. Ölkəmizin vətəndaşları və biznes qurumları tərəfindən Fondun hesabına müntəzəm olaraq ianələr edilir.

İctimai faydalı fəaliyyət olan könüllülük ölkəmizdə son illərdə ən geniş yayılan və dövlətimiz tərəfindən dəstəklənən xeyriyyəçilik formalarından biridir. "Könüllülük haqqında" Azərbaycan Respublikasının Qanunu 2009-cu ilin 9 iyununda təsdiq olunub. Dövlətimizin başçısı, həmçinin 2020-ci ili "Könüllülər ili" elan edib və bu, könüllülük hərəkatının daha geniş vüsət almasına şərait yaradıb.

Xeyriyyəçilik xalqımızın milli xüsusiyyətlərindən biri kimi ölkəmizin inkişafına və cəmiyyətin tərəqqisinə yardım göstərir. Bu fəaliyyətin qanunvericilik əsaslarının yaradılması istiqamətində də iş aparılır. Belə ki, Milli Məclisdə "Xeyriyyəçilik fəaliyyəti haqqında" qanun layihəsinin hazırlanması üçün İşçi Qrupu yaradılıb.

Bakının mərkəzində xalqımızın ən böyük xeyriyyəçilərindən olan Hacı Zeynalabdin Tağıyevə abidə qoyulması, onun tarixi xidmətlərinin xalqımız və dövlətimiz tərəfindən yüksək dəyərləndirilməsi ictimai maraqlar naminə təmənnasız fəaliyyətin ölkəmizdə daha genişlənməsi üçün mühüm stimuldur.

**Möhtərəm RƏCƏBOVA,
"Respublika".**